# Qurban bayramının fəlsəfəsi və Azərbaycan xalqının yazdığı zəfər tarixi

***"Qurban bayramı islamın bir din kimi tamamlanması və mənəvi-əxlaqi qurtuluş yolu olaraq insanlara bəxş edilməsi ilə əlamətdardır"***

**İlham Əliyev.**

Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli "Azərbaycan Respublikasının bayramlar haqqında" qanununa əsasən, Qurban bayramı Azərbaycanda da dövlət səviyyəsində qeyd edilir.

Azərbaycan müsəlman dünyasının ayrılmaz parçasıdır. Tarixən islami dəyərlərin və bununla bağlı mədəniyyətin inkişafına misilsiz töhfələr vermişdir. Digər müsəlman ölkələri kimi, Azərbaycanda da İslam dinindən irəli gələn vəzifələr yerinə yetirilir. Azərbaycanda Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra bütün sahələrə ayrılan diqqət kimi, milli-mənəvi dəyərlərimizə də xüsusi önəm verildi. Qurban İslam aləmində ən dəyərli bayramlardan biridir. "Qurban" sözü lüğəti mənada "yaxınlaşmaq" deməkdir. Qurban bayramı xeyirxahlıq və mərhəmət duyğularının təcəssümüdür, insanları halallığa, paklığa, birliyə səsləyir. Bu gündə ölkəmizin hər yerində Allahın adına qurbanlar kəsilir, dualar edilir, imkansızlara əl tutulur və şəhidlərimizin xatirəsi yad edilir.

Əsrlər boyu Azərbaycanın tərkibində ayrı-ayrı xalqlara və dinlərə mənsub vətəndaşlar qarşılıqlı hörmət, mehribanlıq içində yaşayıb və hələ də yaşamağa davam edir. Bu isə Azərbaycan Respublikasının necə tolerant və humanist ölkə olduğunu bir daha sübut edir. Qurban bayramı bizə öyrədir ki, daha ali hədəflər üçün nisbətən aşağı dərəcəli istəkləri fəda etməyə hazır olmalıyıq. Ona görə də Qurban bayramı məhz bu fədakarlığı simvolizə edir. Tarixən İslama və onun mütərəqqi ənənələrinə bağlı olan xalqımız əsrlər boyu bu dəyərləri yaşatmış və ölkəmiz İslam sivilizasiyasının mədəni mərkəzlərindən birinə çevrilmişdir.

**Bəs qurban kəsərkən nələrə diqqət etməliyik?**

Dinimizdə buyrulub ki, ilk növbədə qurbanlıq heyvan sağlam olmalıdır. Üzü qibləyə kəsici alətlə kəsilməlidir. Qurbanı kəsən şəxs müsəlman olmalı və onu kəsən zaman Allahın adını çəkməlidir. Bunlar şəriət nöqteyi-nəzərdən əsas şərtlərdir. İnsanların birliyinə, bir-birinə qarşılıqlı hörmət etməsinə xidmət edən bu bayram ailə dəyərlərinin möhkəmlənməsində də xüsusi əhəmiyyət kəsb edir. İslam dininin qaydalarına görə kəsilən qurbanlıq üç yerə bölünə bilər. Bu payların qurban kəsən şəxsin ailəsinə, yaxın qohumlarına və yoxsullara paylanması məsləhət görülür.



İslam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində təmtəraqla qeyd olunur.

**Qələbə sevincli Qurban bayramı**

Hər il ölkəmizdə xalqımız qurbanlar kəsərkən, dualar edərkən torpaqlarımızın işğaldan azad olunmasını diləyirdilər. Nəhayət xalqımızın duaları qəbul olundu. Bu gün Azərbaycanın Müzəffər ordusu torpaqlarımızı işğaldan azad etdi. Artıq xalqımız "İnşallah gələn il bayramı Qarabağda qeyd edək" demir. Çünki biz artıq bayramlarımızı Qarabağda qeyd edəcəyik. Qurbanlarımızı Qarabağda kəsəcəyik. Bayram namazı Qarabağda qılınacaq. 44 gün davam edən Vətən müharibəsində qazanılan zəfər xalqımızın illərdir etdiyi duaların qəbul olunduğunun göstəricisidir.

Azərbaycanın dərin kökünə, milli-mənəvi və dini dəyərlərinə sadiq olan gənclərimiz bir an belə qorxmadan, çəkinmədən canlarını vətən yolunda qurban verdilər. Bu birlik ovqatı bizim hamımız - cəmiyyətimiz və dövlətimiz üçün olduqca mühüm amildir. Məhz birliyimiz, həmrəyliyimiz düşmənlərimizi məğlubiyyətə uğratdı, böyük qələbəmizi təmin etdi. Bu günləri bizə yaşadan şəhidlərimizə Allah rəhmət eləsin. Allah-Təalanın insanların mənən saflaşmaları və həmrəyliyə nail olmaları məqsədilə qərar verdiyi bu bayram günlərində kəsdiyiniz qurbanları, verdiyiniz ehsanları, etdiyiniz duaları qəbul etsin.

**QƏLƏBƏ SEVİNCLİ QURBAN BAYRAMINIZ MÜBARƏK.**

# Qəbələ gəncləri hərbi xidmətə yola düşüblər

9 iyul 2021-ci il tarixində qəbələli gənclərin hərbi xidmətə yola salınması münasibətilə tədbir keçirilib. Tədbirdə Qəbələ RİH-nin, hüquq-mühafizə orqanlarının, idarə, müəssisə və təşkilatların rəhbərləri, çağırışçıların valideynləri və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə şəhərin mərkəzində yerləşən parkda ucaldılmış ulu öndər Heydər Əliyevin abidəsini ziyarət etmiş, önünə gül dəstələri düzmüşlər. Tədbir Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin Qəbələ Rayon Şöbəsində davam etmişdir. SHXÇDX-nin Qəbələ şöbəsinin rəisi polkovnik Anar Ağabəyov tədbiri giriş sözü ilə açaraq ölkəmizdə ordu quruculuğu sahəsində qazanılan uğurlardan, 44 günlük müharibədə Azərbaycan oğullarının igidliklərindən bəhs etmişdir.





Tədbirdə çıxış edən rayon icra hakimiyyətinin başçısının I-ci müavini Abil Ağasəfov isə Azərbaycanda ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan ordu quruculuğunun bu gün möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən böyük məharətlə davam etdirilməsi nəticəsində Milli Ordumuzun regionun ən güclü və qüdrətli ordusuna çevrildiyini diqqətə çatdırmışdır. Təntənəli mərasimdə rayon ağsaqqallar şurasının sədri Mehman İsmayılov, Qarabağ müharibəsi veteranları və Vətən müharibəsi qaziləri çıxış edərək gənclərə bu şərəfli missiyanın yerinə yetirilməsində uğurlar arzulamışlar. Çağırışçı gənclər Azərbaycan bayrağı qarşısında baş əyərək böyük ruh yüksəkliyi ilə hərbi xidmətə yollanıblar.

**"Qəbələ"**

# Kəndimizin döyüşçü oğlu

Vətənimizdə dinc və firavan yaşayan erməni xainləri faşist niyyətləri və hərəkətləri ilə ərazi iddiasına düşdülər... Təəssüf hissi ilə qeyd edək ki, torpaqlarımızın 20 faizini xaincəsinə işğal etdilər.

30 ilə yaxın bir vaxtda işğal etdikləri ərazilərdə güclü istehkamlar qurdular və bu əraziləri özününküləşdirməyə çalışdılar.

Onların atəşkəsi hər gün pozmaq və vandallıqla, vəhşiliklə törətdikləri hadisələr xalqımızın, eləcə də ölkə Prezidentinin səbr kasasını doldurmuşdu. Elə buna görə də 2020-ci il sentyabrın 27-də Ali Baş Komandan hərbi səfərbərlik elan etdi. Ölkəmizin gəncləri böyük həvəslə bu səfərbərliyə qoşuldular. Kəndimizdən Göyüşov Nurlan Mübariz oğlu da



30 sentyabrda Ağcabədi rayonunda təlimlərdə iştirak etmişdi. Bir həftə sonra isə Füzuli və Xocavənd bölgəsində gedən döyüşlərdə iştirak etmişdir. O qumbaraatan batalyonunda döyüşlərdə iştirak etdi. Döyüş səhnələri bir an da olsun göz önündən getməyən Nurlan döyüşən oğuların qəhrəmanlığından, gözləri önündə şəhid olan döyüşçü yoldaşlarından, yaralanmasına baxmayaraq, döyüşlərdə iştirak edən qazilərdən danışır və onların döyüş səhnələrinin qəhrəmanlıq salnaməsi olduğunu qeyd edir. O, xüsusilə əslən Şamaxı şəhərindən olan tabor komandiri Asif Ağayevin qəhrəmanlığı haqqında xatirələrdən ürək ağrısı ilə danışdı. Asif Ağayevin şəxsi heyəti itkisiz mühasirədən çıxararaq döyüş meydanında qəhrəmanlıqla şəhid olduğunu qeyd etdi.

**Mirzəbala YEDİYAROV,**
**Bılıx kəndi.**

# "Yay mövsümündə yanğın təhlükəsizliyi tədbirləri" mövzusunda seminar müşavirə keçirilmişdir

"Yay mövsümündə Yanğın Təhlükəsizliyi Tədbirləri" mövzusunda müşavirə keçirilib. Müşavirədə Qəbələ rayon İcra Hakimiyyətinin, FHN-nin Şimal-Qərb Regional Dövlət Yanğın Nəzarəti İdarəsinin, rayon Polis şöbəsinin, DTX-nin rayon şöbəsinin, rayon Prokurorluğunun, Regional Meşə Təsərrüfatı Mərkəzinin, Dövlət Aqrar İnkişaf Mərkəzinin, Aqrolizinq MMC-nin nümayəndələri, təsərrüfat rəhbərləri, Qəbələ rayon İnzibati Ərazi Dairəsi üzrə Nümayəndələri və Bələdiyyə sədrləri iştirak etmişdir.




Açıq hava şəraitində keçirilən tədbirdə yay mövsümündə yanğın təhlükəsizliyinə ciddi riayət edilməsi, kövşən sahələrinin yandırılmaması, yol kənarı, meşətrafı ərazilərin zolaqla şumlanması, kəndlərdə könüllü yanğından mühafizə dəstələrinin yaradılması və s. kimi tələblər qarşıya qoyulmuşdur.